Elşad Yaqub oğlu Məmmədov
Esmira Mirməmməd qızı Əhmədova

UOT: 005-027.21; JEL: M10.

Milli iqtisadiyyat: idxalın əvəz olunması

Xülasə

Məqalədə dünya bazarlarında yaranmış qeyri-sabit şəraitdə, çağırışlara qarşı dayanıqlılığın qorunub saxlanılması vasitəsi kimi, Azərbaycan milli iqtisadiyyatı üçün idxal əvəzinin aktual problemləri tədqiq edilmişdir. Bununla yanaşı, makroiqtisadi səviyyədə idxal əvəzinin strukturunda hədəf kimi qəbul edilən əsas istiqamətlər işlənib hazırlanmış və tətbiq edilməyə təklif olunmuşdur. Müəlliflər hesab edirlər ki, ölkə iqtisadiyyatı üçün vacib olan bu istiqamətlər üzrə idarəetmə qərarlarının vaxtında qəbul edilməsi, Azərbaycan Respublikasında iqtisadi proseslərin inkişaf dinamikasının keyfiyyət və kəmiyyət göstəricilərinin əhəmiyyətli dərəcədə yaxşılaşması üçün əsas olmalıdır.

Açar sözlər: *milli iqtisadiyyat, makroiqtisadi proseslər, iqtisadi sistemlər, kapitalın effektivliyi və idxalin əvəz olunmasi*

Giriş

Hazırda dünya iqtisadiyyatında kapitalın effektivliyinin kəskin şəkildə enməsi, onilliklər ərzində qlobal istehsal zəncirlərinə, əmək bölgüsünə, tələbin süni stimullaşdırılmasına, qlobal satış bazarına, bir emissiya mərkəzinə bağlı dünya iqtisadi modeli tənəzülə uğramaqdadır. Bu proses milli iqtisadi sistemlər qarşısında kifayət qədər mürəkkəb çağırışlar qoyur. Bu çağırışlara adekvat, çevik reaksiyanın verilməsi üçün bir tərəfdən proseslərin diagnostikası, inkişaf perspektivləri dəqiq müəyyənləşdirilməli, digər tərəfdən iqtisadi siyasətin əsas istiqamətləri və parametrləri müəyyən edilməlidir. Görünən odur ki, qlobal istehsal zəncirlərinin qırılması, vahid bazarların makrobölgələrə bölünməsi, hegemon emissiya mərkəzinin problemləri, tələbin süni stimullaşdırılmasının səmərəliliyinin azalması, pul kütləsinin tələb olunandan kəskin şəkildə çox olduğu iqtisadi sistemlərdə bir qədər də artırılmasının daha effekt verməməsi reallığa çevrilir [1]. Belə şəraitdə Azərbaycan iqtisadiyyatının dayanıqlılığının qorunması, onun xarici iqtisadi şoklardan [2], beynəlxalq kapital hərəkətindəki qeyri-tarazlıqlardan sığortalanması üçün ölkə iqtisadiyyatının istehsal potensialının daxili bazarın maksimum şəkildə təmin etməsi istiqamətində müvafiq tədbirlər görülməli, eyni zamanda regional iqtisadi əməkdaşlıq siyasətinin inkişaf etdirilməsi ilə milli istehsal üçün prioritet ixrac bazarlarının işlənilməsi zəruridir. Bu öz növbəsində istehsalın lokallaşdırılmasını, idxalın əvəz edilməsini, idxal nöqteyi nəzərdən texnologiya idxalını və istehsalda texnoloji kooperasiyanın reallaşdırılmasını labüd edir. Bu siyasətin həyata keçirilməsi üçün Azərbaycanın xarici ticarətinin idxal segmentinin struktur təhlilinə, eləcədə milli istehsalımızın inkişaf dinamikasına nəzər salmağımıza ehtiyac var [3].

Əsas mətn

Ölkəyə idxal olunan əsas malların və mal qruplarının strukturu onu deməyə əsas verir ki, onların xeyli hissəsinin yerli istehsalla əvəz edilməsi üçün potensial imkanlar mövcuddur [4]. İdxalın əvəz olunması mümkün olan bir sıra əsas idxal olunan mallar üzrə rəqəmlərə nəzər salaq və təhlil aparmaq mümkündür.

©*Elşad Yaqub oğlu Məmmədov i.e.d.,prof. ADİU, E-mail: elshad.mamedov.76@mail.ru; Esmira Mirməmməd qızı Əhmədova dissertant, ADİU, E-mail: fbc.baku@gmail.com*
© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

Dərman vasitələri (əczaçılıq). 2018-ci ildə ölkəyə bu seqment üzrə idxalın həyata keçirilməsi 254073,5 min ABŞ dollarına başa gəlmiş, 2019-cu ildə bu mal qrupu üzrə idxal 16,7 faiz artaraq 296531,8 min ABŞ dollarına çatmışdır. Bu il ölkədə və dünyada baş verən proseslərlə (pandemiya) əlaqədar bu rəqəmlərin artmasını gözləmək lazımdır. Bunun müqabilində faiz üzrə ölkədə bu mal qrupu üzrə istehsalın artımını da görə bilərik. Amma pul ifadəsində bu göstərici kifayət qədər cüzidir - 3110,5 min ABŞ dolları. Bu, eləcədə səhiyyənin dünya iqtisadiyyatının ən iri və ən sürətlə inkişaf edən sahəsinə çevrilməsi faktı onu deməyə əsas verir ki, bu sahəyə qabaqlayıcı şəkildə investisiyaların yatırılması zərurəti var. Eyni zamanda bu mal qrupu üzrə həm daxili istehlakın, həm ixrac potensialının böyüməsi perspektivlərini nəzərə alaraq, həmçinin bütövlükdə bu mal qrupu üzrə tələbin elastikliyinin aşağı olması səbəbindən bu sahəyə istiqqamətlənmiş investisiyaların həcminin kəskin şəkildə artırılması zəruridir.

Buğda. Bu seqmentdə 2018-ci il idxalın ümumi dəyəri 205967 min ABŞ dolları, 2019-cu ildə 340533,1 min ABŞ dolları (artım-65,3%) olmuşdur [5]. Bu seqment üzrə daxili istehlakın artımını nəzərə alaraq, həmçinin əsas idxalçı dövlətlərin ixracatlarının məhdudlaşdırılması və daxili bazarlarında fokuslaşması səbəbindən bu istiqamətdə investisiya-innovasiya siyasətinin təxirəsalınmaz qaydada reallaşdırılmasına ciddi şəkildə ehtiyac var. Bu məsələ ilə bağlı əsas problem kimi su təchizatı ilə əlaqəli problemləri və torpaqların şorlanmasını qeyd etmək olar. Çıxış yolu kimi su istifadəsi ilə bağlı qənaətdici texnologiyaların(dronlar, biotexnologiyalar və s.), sunun kənd təsərrüfatında və bütövlükdə istehlakda istifadəsi ilə bağlı optimallaşdırma və balanslaşdırma normativlərinin hazırlanması və tətbiqini və torpaqların şorlanmasına qarşı elmi-texniki tərəqqiyə əsaslanan yanaşmanın reallaşdırılmasını göstərmək olar.

Siqarət, tütün və digər tütün məmulatları. Bu mal qrupu üzrə idxaldakı kəskin azalma bu istiqamətdə investisiyaların artımı, yerli istehsalın stimullaşdırılmasının digər mexanizmləri ilə korrelyasiya təşkil edir. Eyni zamanda bu mal qrupu üzrə idxalın həcminin hələ də böyük olması (117129 min ABŞ dollar), tələbin elastikliyinin az olması, ixracla bağlı müəyyən perspektivlər satış bazarının və deməli investisiya potensialının və istehsalın lokallaşdırılması imkanlarının genişliyini göstərir.Bu mal qrupu üzrə yerli istehsalın mövcud olmasına baxmayaraq burada lokallaşma əmsalı aşağı, qlobal istehsal zəncirliyindən asılılıq yuxarıdır. Bu sözsüz ki, çağırış kimi qəbul olunmalıdır.

Bitki yağları. Bu mal qrupu üzrə idxalın 8,9% artması və bir spesifik mal qrupuna və ölkə iqtisadiyyatının miqyasına görə çox böyük olması(100000 min ABŞ dollarından çox), daxili bazarın potensialının böyüklüyünü göstərir. Bu mal qrupu üzrə yerli istehsalın mövcud olmasına baxmayaraq, burada da lokallaşma əmsalı aşağı, qlobal zəncirlərindən asılılıq yuxarıdır. Bu sözsüz ki, çağırış kimi qəbul olunmalıdır.

Təzə meyvə. Son illər bu mal qrupu üzrə ixracda müşahidə edilən artım dinamikası həmçinin idxalın da artımı ilə müşahidə edilir (2019 –cu ildə 2018-ci ilə nisbətən - 3.5%). Əkin məqsədi ilə istifadə edilən torpaq sahələrinin artırılması, maliyyə resurslarının əlçatanlığının təmin edilməsi, suqoruyucu texnologiyaların tətbiqi, torpaqların şorlanmasının qarşısının alınması, innovativ tutumlu texnologiyaların (bio və hüceyrə texnologiyaları) tətbiqi ümümi meyvə -tərəvəz segmenti üzrə 200000 min ABŞdollar tutumlu idxalın xeyli azaldılmasını təmin edə bilər. Eyni zamanda qlobal texnoloji zəncirlərin qırılması idxalı bir qədər də azalda bilər.

Geyim əşyaları və geyim üçün ləvazimat. 2019-cu ilin yekunlarına görə bu mal qrupu üzrə idxalın həcmi təqribən 277 000 min ABŞ dolları təşkil etmişdir [5]. Ölkədə bu istiqamətə aid istehsal güclərinin lokallaşdırılması, tədavül xərclərinin azaldılması, böyük sayda iş yerlərinin açılmasına və valyuta axınının qarşısının alınmasına, istehsalı artan pambığın xammal kimi ixrac edilməsinə deyil, emal dərinliyi hesabına hazır məhsul şəkildə daxili və

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

xarici bazarlara çıxarılmasına şərait yarada bilər. Nəzərə almaq lazımdır ki, pambıq istehsalının artımı su istehlakının artımı ilə müşahidə edilir ki, bu istehsalın rentabelliyinə təsirsiz ötüşmür. Ona görə də pambıq istehsalının artımı ölkənin yüngül sənayesində istehsal zəncirinin dərinləşməsi ilə müşahidə edilməlidir.

Plastmass və ondan hazırlanan məmulatlar. 2019-cu ildə bu mal qrupu üzrə idxalın həcmi 400000 min ABŞ dollarından yüksək olmuşdur. Ölkəmizdə hasil edilən neftin təqribən 80 faizinin xammal şəklində ixrac edildiyini nəzərə aldıqda, ölkədə təxminən 500000 min ABŞ dollar həcmində daxili bazarın mövcud omasını, həmçinin neft emalı nəticəsində istehsal oluna bilən digər əmtəələrə dair bazrarların böyük potensialını nəzərə aldıqda ölkədə neft-kimya sənayesinin inkişafının böyük potensialı var. Bu sahədə investisiya layihələrinin valyuta tutumlu olmasına baxmayaraq, onların yüksək multiplikativ effekti və əlavə dəyər vermək potensialı, xam neftinin qiymətinin uzun müddət ərzində kəskin yüksəlişinin gözlənilməməsi, eləcədə reqional iqtisadi kooperasiya perspektivləri neft-kimya sənayesinin həm lokallaşma, həm idxalın əvəz olunması, həm məşgulluq, həm ixrac potensialı baxımından ölkəmiz üçün prioritet istiqamət kimi mövqeləşməsini şərtləndirir.

Nəzərə almaq lazımdır ki, 2 mlrd. ABŞ dollar yaxın tutumu olan qeyd olunan mal qrupları üzrə idxalın əvəz olunması və istehsalın lokallaşdırılması ilə bağlı yanaşmalar əksər digər mal qruparı üçün də tətbiq edilə bilər. Bunun üçün effektiv metodologiyaya əsaslanaraq milli iqtisadiyyatın sahələrarası balansının dinamik modeli hazırlanmalıdır. Yuxarıda qeyd edilənlərlə yanaşı, ölkə iqtisadiyyatının dayanıqlı və qabaqlayıcı inkişafının təmin edilməsi resursqoruyucu texnologiyaların tətbiqini zəruri edir. Bu istiqamətdə ən aktual resurs kimi su çıxış edir. Su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində ötən il 328,4 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da əvvəlki ilin analoji göstəricisindən təxminən 6 faiz çoxdur. Lakin iqtisadiyyatda artan tələblə müqayisədə bu artım yetərli deyil və suqoruyucu texnologiyaların tətbiqinə tələbat kəskin şəkildə artmaqdadır [6]. Hesab edirik ki, bu istiqamətdə mühüm məsələlərdən biri su elektrik stansiyalarının enerjiqoruyucu texnologiyalar hesabına yükünün azaldılması ola bilər. Belə ki, 2019 cu ildə 2018-ci il ilə müqayisədə müəyyən azalmaların baş verməsinə baxmayaraq (11,6%) su elektrik stansiyaların hesabına 1535,5 kVt/s elektrik enerjisi istehsal olunmuşdur.

Qeyd etmək lazımdır ki, dünya iqtisadiyyatında baş verən proseslər böyük ehtimalla dünya iqtisadiyyatında həm təklif sferası üzrə, həm tələb sferası üzrə ciddi transformasiyaların olacağı ilə nəticələnəcək. Bununla yanaşı,ən mühüm məsələlərdən biri ondan ibarətdir ki, yeni şəraitdə dayanıqlı rəqabət üstünlüklərinin formalaşması üçün effektiv təsərrüfat modeli tətbiq edilməlidir ki, bu modelin işlənilib hazırlnmasının vacibliyini real iqtisadi vəziyyət şərtləndirir. Hesab edirəm ki, bunun üçün ölkə iqtisadiyyatının effektiv metodologiya əsasında sahələrarası balansı hazırlanmalı, strateji planlaşdırmaya əsaslanan iqtisadi inkişaf modeli işlənilməli və təkrar istehsalın bütün komponentləri üzrə mövcud potensial inkişafa yönəlik pul-kredit və innovasiya-investisiya siyasəti ilə əlaqələndirilməlidir.Bu yanaşmanın tətbiqi, eyni zamandaölkə iqtisdiyyatında pul kütləsinin artımı üçün böyük potensialın mövcud olması,idxalın əvəz olunması, milli istehsalımız üçün satış bazarlarının dərinləşməsi və genişləndirilməsi, istehsalın reqional lokallaşdırılması Azərbaycan iqtisadiyyatının yaxın 20 il ərzində 5-7%-lik artım dinamikasını təmin edə bilər.

İqtisadi inkişaf baxımından ən önəmli indikatorlardan biri kapital qoyuluşlarının effektivliyi göstəricisidir. İnvestisiyaların səmərəliliyi iqtisadi fəaliyyətin əsas göstəricilərindən biridir. Daha ümumiləşdirilmiş formada ictimai istehsalın iqtisadi səmərəliliyi "nəticələr-xərclər" nisbəti kimi müəyyən edilir. Bizim tərəfimizdən 2017-ci ildə iqtisadi-riyazi üsullarla Azərbaycanda əsaslı kapital qoyuluşu üzrə iqtisadi fəaliyyətin müxtəlif istiqamətləri üzrə effektivlik göstəriciləri müəyyən edilmişdir [7]. Kapital

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

qoyuluşunun effektivliyinin mənfi dinamikası əsasən hasilat sənayesində müşahidə olunmuşdur. Emal sənayesində isə əksinə. Emal sənayesinə qoyulan bir manat 2017-ci ildə 28 manat gətirmişdir. Bu göstərici 10 il ərzində təxminən 2 dəfə artırılıb.. Beləliklə, emal sənayesinə istiqamətlənmiş innovasiya-investisiya siyasətinin həyata keçirilməsi prioritet hesab olunmalıdır.

Nəticə

Ölkədə yeni çağırışlara adekvat iqtisadi siyasətin həyata keçirilməsi üçün müvafiq elmi-metodoloji bazanın, eyni zamanda tədqiqatların keyfiyyətcə yeni metodikasının hazırlanmasına ciddi ehtiyac yaranmışdır. Bu istiqamətdə təxirəsalınmaz, o cümlədən institusional qərarların qəbul edilməsi zəruridir. Hesab edirik ki, yuxarıda qeyd edilənləri nəzərə alaraq, ölkədə reallaşdırılan iqtisadi islahatların elmi əsaslarının, nəzəri bazasının və tətbiqi mexanizmlərinin hazırlanması məqsədi ilə bu kimi tədbirlərin həyata keçirilməsi məqsədə müvafiqdir: ölkə iqtisadiyyatının kompleksli, sistemli və struktur təhlilinin həyata keçirilməsi üçün tədiqat bazasının yeniləşdirilməsi; ölkə iqtisdiyyatında baş verən proseslərin struktur təhlili, iqtisadi tarazlığın təmin edilməsi üçün milli iqtisadiyyatın dinamik model üzrə sahələrarası balansının tərtib edilməsi; ölkə iqtisadiyyatının uzun müddətli inkişaf istiqamətlərini özündə əks etdirən strateji planlaşdırma mexanizminin, o cümlədən, onun qanunvericilik bazasının hazırlanması; strateji planlaşdırma ilə bağlı aidiyyatı sənədlərdə ayrı-ayrı dövlət qurumları və strukturlarının fəaliyyətinin dəyərləndirilməsinə dair normativlərin və indikatorların hazırlanması; ölkədə məhsuldar qüvvələrin ərazi və məkan üzrə tarazlı şəkildə yeləşdirilməsinin strateji planlaşdırma mexanizmləri çərçivəsində əks olunması; qəbul olunacaq strateji planlaşdırma mexanizmlərinə uyğun olaraq ölkədə özəl sektorun inkişaf istiqamətlərini özündə əks etdirən indikativ planlaşdırma mexanizmlərinin işlənilməsi; ölkə iqtisadiyyatının struktur qeyri-tarazlıqlarının müəyyən edilməsi və aradan qaldırılması məqsədi ilə metodoloji bazanın və metodiki üsulların hazırlanması; təkrar istehsalın bütün komponentləri üzrə ölkə iqtisadiyyatının diaqnostikasının həyata keçirilməsi; iqtisadiyyatın mürəkkəb, çox funksiyalı və müxtəlif hədəflər üzrə inkişaf siyasətinin elmi əsaslarının hazırlanması; ölkədə dayanıqlı və artımmeylli investisiya-innovasiya siyasətinin həyata keçirilməsinin elmi əsaslarının formalaşdırılması; iqtisadi inkişafı sürətləndiəcək təkmil konseptual, nəzəri-metodoloji bazanın təşkli;

Ədəbiyyat

1. Bezpalov Valeri Vasilyeviç, Rusanenko Lyubov Nikolayevna ölkənin və regionların sənaye kompleksinin inkişafı üçün bir vasitə kimi İMPORTOZAMETSİYA siyasəti // Avrasiya Alimlər Birliyi. 2019. №4-9 (61). URL:https://cyberleninka.ru/article/n/politika-importozamescheniya-kak-instrument-razvitiya-promyshlennogo-kompleksa-strany-i-regionov.
2. Bart Verspagen, Mary Kaltenberg. UNIDO/UNU- MERIT background papers for the UNIDO, Industrial Development, Report 2016: IDR 2016 WP 12, URL: https://www.unido.org/api/opentext/documents/download/9923941/unido-file-9923941
3. Hayfets Boris Aronoviç. "İmportozamsion və rəqabət qabiliyyəti" Rusiya və müasir dünya, no. 2 (91), 2016, pp. 6-21.
4.Qlobal, regional və milli inkişafın modelləşdirilməsi və proqnozlaşdırılması/İTV.A. A. Akayev, A. V. Korotayev, Q. Q. Malinetski, S. Y. Malkov. - Moskva: "LİBROKOM" Kitab Evi, 2012. - 488 s.
5.Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları, URL: www.stat.gov.az

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

6. Mammadov, Elshad; Ahmadova, Esmira. IMPACT OF INNOVATIONS ON THE ECONOMIC ADVANCEMENT OF AZERBAIJAN. Economic and Social Development: Book of Proceedings; Varazdin Том 4,: 680-687. Varazdin: Varazdin Development and Entrepreneurship Agency (VADEA). (Jun 18/Jun 19, 2020)
7. Мамедов Э.Я., Ахмедова Э.М., О признаках и методологии устойчивости экономики стран. Материалы IV Международной научно-практической конференции «Экономическое развитие государства и его социальная стабильность», Украина, 2020

Эльшад Ягуб оглу Мамедов
Эсмира Мирмамед кызы Ахмедова

Национальная экономика: импортозамещение

Аннотация

В статье исследованы актуальные проблемы импортозамещения для национальной экономики Азербайджана как инструмента сохранения устойчивости пред вызовами в сложившихся нестабильных условиях на мировых рынках. Вместе с тем, разработаны и предложены к внедрению основные направления, принятые в качестве целевых ориентиров в структуре импортозамещения на макроэкономическом уровне. Авторы полагают, что своевременное принятие управленческих решений по этим важнейшим для экономики страны направлениям должно послужить основой для значительного улучшения качественных и количественных показателей динамики развития экономических процессов в Азербайджанской Республике.

Ключевые слова: *национальная экономика, макроэкономические процессы, экономические системы, эффективность капитала и импортозамещение*

Elshad Yagub Mammadov
Esmira MirmamedAhmadova

The national economy: import substitution

Annotation

The article examines the current problems of import substitution for the national economy of Azerbaijan as a tool for maintaining stability before challenges in the current unstable conditions on world markets. At the same time, the main directions adopted as targets in the structure of import substitution at the macroeconomic level have been developed and proposed for implementation. The authors believe that timely management decision-making in these areas that are important for the country's economy should serve as a basis for significant improvement of qualitative and quantitative indicators of the dynamics of economic processes in the Republic of Azerbaijan.

Keywords: *national economy, macroeconomic processes, economic systems, capital efficiency and import substitution*

Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov
Daxil olub: 02.09.2020.
Çapa qəbul olunub: 07.09.2020.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az